# Nə qədər ki, gec deyil

***Burzuyev Əmirxan Zahid oğlu Əmirvan kəndində yaşayır. Ali təhsillidir. İxtisasca tarix müəllimidir. Uzun illər məktəb direktoru, kənddə inzibati ərazi nümayəndəsi kimi vəzifələrdə işləmişdir. Azərbaycan müəllimlərinin II qurultayının nümayəndəsi olmuş, bir sıra fəxri Fərman və diplomlarla mükafatlandırılmış, ali dərəcəli müəllim kimi fəxri ada layiq görülmüşdür. Hazırda pensiyaçıdır.***

***Əmirxan müəllim gəncliyinin ilk illərindən poeziya həvəskarıdır. 3 şeirlər kitabı işıq üzü görmüşdür.***

***Aşağıda onun ədalətsiz müharibə törədənlərə nifrət hissi ilə yazdığı yeni şeirini dərc edirik.***

Məlumdur dərk eləyən,
Duyan olaraq, bizə
Tanrının yaratdığı
Hər şey böyük möcüzə.
Möcüzələr içində
Daha kamil olanı
İnsandır ki, dəyişmiş
Əqli ilə cahanı.
Əməyilə zəkasın
Zaman-zaman artırmış.
Zəkasının gücülə
Gör o nələr yaratmış.
Yer ona bəs etmədi
Üzünü göyə tutdu.
Əllərini günəşə,
Ulduzlara uzatdı.
Mözüzələr yaradan
Tanrının bu varlığı
Kainatda əlinə
Keçirtdi ağalığı.
Yaradan köməyini
Əsirgəməmiş ondan.
Şüur, idrak vermiş ki,
Azmasın öz yolundan.
Amma tamah deyilən
Bir hiss var ki içində
Ram edənmir bu hissi
Duyğusuna keçəndə.
Bu hiss hakim olanda
Əqlinə, varlığına
Əlbət, məyus olursan
Onun mövcudluğuna.

* * *

Xalqları yuvasından,
Yurdundan eləyənlər,
Terrorun cilovunu
Boynuna keçirənlər.
Zavallı məzlumları
Tapdalayıb keçənlər,
Millətlərin qanını
Zəli kimi içənlər,
Məqsədləri uğrunda
Fitnələr törədənlər,
Günahsızlar içində
Amansız işgəncələr...
Bütün bu baş verənlər
Həmin hissin oyunu.
İstəklər toqquşanda
Qurd məhv edir qoyunu.
İllərcə yaradılan
Bircə anda məhv olur.
Zora məhkum ölkənin
Sərvətləri talanır.
Sonda işə qarışır
Beynəlxalq təşkilatlar.
Məhkəmədə qurd deyil,
Qoyun olur günahkar.
Bax beləcə günahsız
Cəzaya məruz qalır.
İnsanlığın dəyəri
Getdikcə azaldılır.
Nə qədər ki, gec deyil,
Böyük haqqa üz tutaq.
Haqqa qarşı çıxmağı
Birdəfəlik unudaq.
Biganəlik olarsa
Qismətimiz, işimiz,
Başımızın üstündə
Sönəcək günəşimiz.
Məhz o zaman gələcək
Qiyamət adlanan gün.
Bütün bəşər övladı
Olacaqdır didərgin.

# TƏQVİMDƏN SƏTİRLƏR

**11 noyabr:** Xalq şairi **Balaş Azəroğlu (Balaş Allahbaxış oğlu Abizadə** (1921—2011) Bakıda anadan olmuşdur. 1938-ci ildə ailəsi ilə birlikdə Ərdəbilə köçüb, 1947-ci ilədək mühacirətdə yaşamışdır. 1941—1946-cı illərdə Cənubi Azərbacanda milli-azadlıq hərəkatının fəallarından olmuşdur. İlk şeiri 1937-ci ildə, ilk kitabı 1943-cü ildə çıxıb. Yaradıcılığında milli-azadlıq mövzusu, sülh uğrunda mübarizə əsas yer tutur.

**13 noyabr:** görkəmli alim, fizika-riyaziyyat elmləri doktoru **Edqar İlal oğlu Muxtarov** 1940-cı ildə Moskvada anadan olmuşdur. 15 kəşfin, 2 monoqrafiyanın, 150 elmi əsərin müəllifidir.

**14 noyabr:** General-leytenant, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı **Kərim Kərimov** (1917—2003) Bakıda anadan olmuşdur. SSRİ-nin kosmik tədqiqatlar sistemində böyük xidmətləri olmuşdur, 25 il SSRİ-də kosmik uçuşlar üzrə Dövlət komissiyasının sədri işləmişdir.

Hindistanın görkəmli dövlət xadimi **Cəvahirləl Nehru** (1889—1964) anadan olmuşdur. Ölkəsinin milli-azadlıq hərəkatında fəal iştirak etmişdir, 1947-ci ildən ömrünün sonunadək Hindistanın baş naziri işləmişdir.

**16 noyabr:** 1926-cı ildə **Azərbycan Sənaye İnstitutu** (indiki Neft Akademiyası) yaradılmışdır.

**17 noyabr: Azərbaycanın Milli Dirçəliş Günüdür.**

Görkəmli cərrah, tibb elmləri doktoru, akademik **Mirəsədulla Mirqasımov** (1883—1958) Bakıda anadan olmuşdur. Azərbaycan Elmlər Akademiyasının ilk prezidenti seçilmişdir. Kommunist partiyasına qəbul olunmaq təklifi ilə razılışmadığına görə vəztifədən getməyə məcbur olmuşdur. Əsas tədqiqatları sidik daşı xəstəliklərinə, urologiya və cərrahlığın digər məsələlərinə aiddir. Tibb sahəsində doktorluq dissertasiyası müdafiə edən ilk azərbaycanlıdır.

# "Qəbələ" turniri 2-ci sırada başa vurub



Türkiyədə keçirilən "Antalya Cup" turniri yekunlaşdırılmışdır. "Qəbələ"nin 15 yaşlılardan ibarət komandası turniri 2-ci pillədə başa vurmuşdur. Dörd komandanın dairəvi sistemlə iki dövrədə mübarizə apardığı turnirdə həmyerlilərimiz 6 oyun keçirmişdir. Komandamız I dövrədə "Lokomotiv"ə (Rusiya) 0:2 hesabı ilə uduzmuş, "Antalyaspor"a (Türkiyə) 3:1 hesabı ilə qalib gəlmişdir. Daha sonra "Dunarea" (Rumıniya) ilə heç-heçə etmişdir – 1:1. Rusiya təmsilçisi ilə ikinci qarşılaşmada da eyni hesabla (0:2) uduzan futbolçularımız, meydan sahiblərini yenə 3 qolla məğlub etmişdir–3:2.

"Antalya Cup" turnirinin son turu öncəsi "Lokomotiv" 1-ci, Türkiyə klubu isə sonuncu yerdə olduğundan "Qəbələ" ilə "Dunarea" arasında qarşılaşma 2-ci yerin taleyinə aydınlıq gətirmişdir. 1:0 hesabı ilə qalib gələn komandamız turnirdə 3-cü qələbəsini qazanaraq, xal hesabını 10-a çatdırmış və "Antalya Cup"da 2-ci yeri tutmuşdur.

Xatırladaq ki, komandamız U-15 Liqasında keçirdiyi 8 oyunun hamısında qalib gələrək liderlər qrupunda qərarlaşmışdır.

# ELANLAR

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Qəbələ Ərazi İdarəsi tərəfindən Böyük Pirəli kənd sakini **Daşdəmirov Şakir Bahadur oğlunun** adına 9 aprel 2011-ci il tarixdə verilmiş reystr №-si 406013008245-10301, inventar №-si 406-2/88 olan yaşayış evinin **Daşınmaz Əmlakın Texniki pasportu** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən Vəndam qəsəbə sakini **Paşayev Əlihüseyn Abdulhüseyn oğlunun** və ailə üzvlərinin adına 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarla verilmiş JN: 1067 (kod 40600048) olan **Torpağa mülkiyyət hüququna dair Dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestr Xidməti Dövlət qeydiyyatı haqqında Daşınmaz Əmlakın Qəbələ ərazi İdarəsi tərəfindən Nic Qəsəbə sakini **Meşayan Sevan Qurgenoviçin** adına 28 fevral 2013-cü il tarixdə verilmiş 406013012433 №-li (qeydiyyat №-si 1913001553) **Torpağın mülkiyyətə veridməsinə dair çıxarış** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 18 may 1998-ci il tarixli 9 saylı qərarla Xırxatala kənd sakini **Zöhrabov Şəfahət Niyazi oğlunun** adına verilmiş JH-332F №-li (kod 40605038) olan **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ şəhər 2 saylı tam orta məktəbin kollektivi iş yoldaşları **Qətibə** və **Elnurə Kərimovalara,** əzizləri
**RAFİQ KƏRİMOVUN**
vəfatı ilə əlaqədar baş sağlığı verirlər.

Azərbaycan Respublikası FHN-nin Şimal-qərb Regional Mərkəzinin kollektivi iş yoldaşları **Şəfixan Qasımova,** bibisi
**MƏMLƏKƏT XANIMIN**
vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.


## «Qəbələ» qəzetinə

*2016-cı ilin birinci yarısı üçün abunə yazılışı davam edir.*

**İllik abunə qiyməti 30 manat, yarımillik 15 manatdır.**

***Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.***

***Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.***

**Ünvan: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.**

**Telefonlar: (024)20 5-19-14, (024)20 5-15-56, mob. (050) 328-11-42.**



Redaktor O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi: N. R. Atakişiyev.

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir. Tiraj 2300.

Oxucu məktubları geri qaytarılmır.